

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 46 (23.933)

*6 mart 2022-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Türkiyənin xarici işlər nazirini salamlayan dövlətimizin başçısı xatırladıb ki, üç aydan sonra Şuşa Bəyannaməsinin birinci ildönümü qeyd ediləcək. Bu, tarixi bir sənəddir. Bu gün və bundan sonrakı illərdə daim Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri həm xalqlarımız üçün, həm bölgə üçün böyük önəm kəsb edəcək.

Mövlud Çavuşoğlu deyib ki, əlaqələrin güclənməsinin yalnız iki ölkənin və xalqın əlaqələrinin güclənməsinə, ya da marağına deyil, bölgənin sabitliyi və əmin-amanlığına da çox faydası olacaq. Bu səbəbdən Şuşa Bəyannaməsində yer alan məsələlərin bölgədəki ölkələrlə münasibətlərimizdə də əksini tapması üçün üçtərəfli, dördtərəfli formatlarda çalışacağıq.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul edib.

***

Prezident İlham Əliyev həmin gün Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə:

Babayeva Zərövşən Yaşar qızı

Məmmədova Ruqiyyə Hüseyn qızı – **"Əməkdar müəllim"** fəxri adı ilə;

İsmayılova Səkinə Hacı qızı – **"Əməkdar həkim"** fəxri adı ilə;

Rüstəmova Gülşad Qəzənfər qızı – **"Əməkdar tibb işçisi"** fəxri adı ilə;

Rüstəmova Süsən Elmixan qızı – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı ilə;

Hüseynova Rəna Sultan qızı

Muxtarova Fərqanə Yusif qızı

Nağıyeva Elnurə Adıgözəl qızı – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 mart 2022-ci il*

## Xalq artisti Rza Xudiyevin 60 illik yubileyi qeyd olunub



*Martın 5-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında teatrın direktoru, Azərbaycan Respublikasının Xalq artisti, Prezident mükafatçısı Rza Xudiyevin 60 illik yubileyi geniş şəkildə qeyd edilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyevə təbrik məktubunu oxuyaraq təqdim edib.

Emin Məmmədov çıxışında qeyd edib ki, Rza Xudiyev 1962-ci il martın 5-də Culfa şəhərində anadan olub. Orta təhsilini Culfa şəhərində alan Rza Xudiyevin məktəbdə oxuduğu illərdən incəsənətə, xüsusən teatr və kino sahəsinə böyük marağı olub. Məktəb tədbirlərində fəallığı, el şənliklərində həvəslə iştirakı nəticəsində aktyor olmağı, bu sənətin arxasınca getməyini qərarlaşdırıb. O, gənclik illərində də bu sənətə maraq göstərib, "Babək" filminin çəkilişlərində iştirak edib. 1983-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu ixtisasına qəbul olub. Tələbəlik illərində də Rza Xudiyev öz istedadını göstərib, bir sıra Azərbaycan filmlərində aktyor kimi iştirak edib. 1987-ci ildə təyinatla Naxçıvan Dövlət Musiqili Dram Teatrına göndərilib və burada aktyor kimi fəaliyyətə başlayıb. O, qısa müddətdə tamaşaçıların rəğbətini qazanmağa nail olub.

Diqqətə çatdırılıb ki, Rza Xudiyev Naxçıvan teatrında səhnələşdirilən 80-dən çox tamaşada rol alıb. O həmçinin Naxçıvana gəldiyi ilk gündən öz fəaliyyətini kino sahəsində, televiziya və radioda davam etdirib, bədii verilişlərin hazırlanmasında əməyi olub. Rza Xudiyev Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının "Əməkdar artisti", "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına, 3 dəfə Prezident mükafatına layiq görülüb, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub. O, 2014-cü ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru kimi fəaliyyət göstərir. Fəaliyyəti dövründə həm teatr rəhbəri, həm də aktyor kimi səhnələşdirilən tamaşalarda milli-mənəvi dəyərlərimizin, tariximizin yaşadılmasına, gənc aktyorların yetişdirilməsinə öz töhfəsini verib. İnanırıq ki, Rza Xudiyev bundan sonra da zəngin ənənələrə malik olan teatr sənətinin inkişafında səmərəli fəaliyyətini davam etdirəcək, yeni-yeni tamaşaların ərsəyə gəlməsində bilik və bacarıqlarını əsirgəməyəcəkdir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, muxtar respublikada teatr sənəti daim inkişaf edir və bu sənətə könül verənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Yubileyi yüksək səviyyədə qeyd edilən Rza Xudiyev də onlardan biridir. O, Naxçıvan teatrına verdiyi dəyərli töhfələrlə, özünəməxsus yaradıcılıq yolu ilə seçilir. Rza Xudiyev təhsil aldığı illərdə tələbə kimi bir neçə tamaşada oynayır və ona hər bir aktyorun arzusu olan kino sənətinə yol açılır. Belə ki, 1985-ci ildə general Həzi Aslanovun həyatından bəhs edən "Mən sizi dünyalar qədər sevirdim" filmində çəkilir. Oxuduğu illərdə müxtəlif səpkili əsərlərdə maraqlı rollar oynayır. Bir aktyor üçün lazım olan bütün keyfiyyətləri özündə cəmləşdirən Rza müəllimin zəhməti artıq tələbəlik illərindən öz bəhrəsini verməyə başlayır. Təyinatla Naxçıvan Dövlət Musiqili Dram Teatrına göndərilir. Naxçıvan teatrında aktyor kimi fəaliyyətə başladığı ilk gündən bir sıra rejissorun diqqətini çəkir və hazırlanan tamaşalarda bir-birinin ardınca əsas və baş rollarda çıxış etməyə başlayır, qısa müddətdə tamaşaçıların rəğbətini qazanmağa nail olur. Rza Xudiyev iştirak etdiyi tamaşalarla ölkəmizin bölgələrində, o cümlədən Türkiyə Respublikasının və İran İslam Respublikasının müxtəlif şəhərlərində qastrol səfərlərində olub, ölkəmizi, muxtar respublika mədəniyyətini layiqincə təmsil edib.

Qeyd olunub ki, Rza Xudiyev özünəməxsus sənəti ilə Azərbaycan teatr aləmində sözünü demiş və uğur qazanmış aktyorlardandır. 2007-ci ildə o, Teatr Xadimləri İttifaqının "İlin ən yaxşı kişi aktyoru" kimi, Səməd Vurğunun "Fərhad və Şirin" tamaşasındakı Fərhad roluna görə "Qızıl Dərviş" mükafatına layiq görülüb. Onun yaradıcılığı və əməyi dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Rza Xudiyev aktyor olmaqla yanaşı, həm də rəhbər vəzifələrdə çalışıb. O, 2010-cu ildən 2014-cü ilə kimi teatrda direktor müavini, 2014-cü ildən bu günə kimi isə teatrın direktoru vəzifəsində çalışır.

Natəvan Qədimova çıxışının sonunda yubilyarı təbrik edib, mədəniyyətə göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Xalq artisti Kamran Quliyev, Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Əməkdar artist Tofiq Seyidov, Naxçıvan Dövlət Kukla Teatrının direktoru, Xalq artisti Şirzad Abutalıbov və yubilyarın digər sənət dostları çıxış edərək vaxtilə tanınmış sənətkarla birgə səhnədə canlandırdıqları obrazların dili ilə təbriklərini çatdırıb, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev çıxış edərək yaradıcılığına göstərdiyi yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını ifadə edib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Rabitəçilərin ixtisasartırma kursları davam edir



***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin 2022-ci il iş planına əsasən rabitə idarələrində işləyən rabitəçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ixtisasartırma kurslarına cəlbi davam edir.***

Culfa, Şahbuz və Kəngərli Rayon Rabitə idarələrinin müvafiq peşə ixtisasına malik olmayan əməkdaşları mart ayından etibarən Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilmiş Kabel xətlərinin quraşdırılması və təmiri üzrə rabitə montyoru ixtisası üzrə kurslara cəlb olunublar. Həmçinin kursda müdavimlərə rabitə avadanlıqlarının əsasları, paylayıcı şkaf və kabel qurğularının montajı, elektrotexnika, əməyin mühafizəsi, peşə etikası barədə dərslər də keçilir. Bir ay davam edəcək kurslara ilkin olaraq 17 müdavim cəlb olunub və növbəti 17 nəfər isə kursun ikinci mərhələsində tədrisi davam etdirəcək.

Ordubad Rayon Rabitə İdarəsinin 11 əməkdaşı isə cari ilin fevral ayında Ordubad Texniki Peşə və Sürücülük Məktəbində ixtisasartırma kurslarına cəlb olunublar və hazırda kurs davam edir.

Qeyd edək ki, kursları 2021-ci ilin müvafiq dövrlərində Naxçıvan Şəhər, Şərur və Babək Rayon Rabitə idarələrindən olmaqla, 57 nəfər bitirib.

Kursu müvəffəqiyyətlə başa vuran müdavimlər sertifikatla təmin olunurlar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbirlər keçirilib






*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında dövlət qadın siyasəti uğurla həyata keçirilir. Naxçıvan qadınlarının ictimai-siyasi fəaliyyətinin ildən-ilə artması bu siyasətin uğurlu nəticəsidir.*

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərində və dövlət idarəçiliyində muxtar respublikamızın xanımları da yaxından iştirak edərək ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərin fəal iştirakçısına çevrilib. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 24 faizini qadınlar təşkil edir. Həmçinin Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan 1-i qadındır. Sonuncu bələdiyyə seçkilərində üzvlərin 221-ni qadınlar təşkil edib ki, onların da 9-u bələdiyyə sədridir. Muxtar respublikanın idarə və təşkilatlarında 266 qadın rəhbər vəzifələrdə işləyir.

Vurğulanıb ki, muxtar respublika qadınlarının əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, müxtəlif orden və medallara layiq görülürlər. Əminik ki, dövlətimizin qayğısını daim öz üzərində hiss edən qadınlarımız bundan sonra da muxtar respublikamızın inkişafı, ailə dəyərlərimizin yaşadılması naminə səylə çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, Azərbaycançılıq və dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına diqqət yetirəcəkdir.

Emin Məmmədov 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə qadınları təbrik edib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov qadınlara təbriklərini çatdıraraq vurğulayıb ki, tarixboyu olduğu kimi, bu gün də qadınlarımız Azərbaycanın inkişafına dəyərli töhfələrini verir. Doğma Naxçıvanda qadın adı bütün dövrlərdə uca tutulub. Hələ 8 əsr bundan əvvəl böyük memarımız Əcəmi Naxçıvani möhtəşəm Möminə xatın türbəsini bina etməklə Şərqdə qadın-ana adının nə qədər uca tutulduğunu bütün dünyaya nümayiş etdirib. Qadına yüksək dəyər və ehtiram yüksək istedada və intellektual potensiala malik qadınlarımızın dövlət idarəçiliyində irəli çəkilməsi bu gün muxtar respublikada həyata keçirilən dövlət siyasətinin əsasını təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara göstərilən diqqətin ali təzahürüdür. Naxçıvan qadınlarının ictimai-siyasi fəaliyyətinin ildən-ilə artması muxtar respublikada həyata keçirilən gender siyasətinin uğurlu göstəricisi hesab olunur.

Diqqətə çatdırılıb ki, ötən 3 il ərzində Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra edilən və müvafiq olaraq Avropa İttifaqının, BMT-nin İnkişaf Proqramının, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinin maliyyələşdirdiyi müxtəlif layihələri öz bəhrələrini verməkdədir. Bu layihələr çərçivəsində aztəminatlı və sağlamlıq imkanları məhdud olan 128 qadına 86 min 250 manat dəyərində sərmayə kapitalı verilib. Cari ildə isə İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsi icra olunacaqdır. Hazırda muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə yanaşı, qadınlar ailə təsərrüfatlarında da təmsil olunurlar. Bu günədək 1209 ailə təsərrüfatı qeydiyyata alınıb ki, bunun da 98-i qadınlar tərəfindən idarə olunur.

Ramilə Seyidova qadınlara göstərilən diqqət, qayğı və yüksək dəstəyə görə muxtar respublika qadınları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib. Komitə sədri bütün qadınları, o cümlədən şəhid və qazi analarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə qadınların ictimai-siyasi proseslərdəki fəallığından danışaraq bildirib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında təmsil olunan üzvlərin 25 min 380-i qadındır. Ümumilikdə, partiyanın üzvü olan qadınlardan 11 min 722 nəfəri ali təhsilli, 4844 nəfəri isə orta ixtisas təhsillidir.

Tədbirdə ailə təsərrüfatçısı Yaqut Babayeva və Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırovanın da çıxışları dinlənilib.

Sonra muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən 46 qadına Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin müxtəlif nominasiyalar üzrə diplomları təqdim edilib və "Müstəqillik illərində Naxçıvan qadınlarının keçdiyi tarixi yol" mövzusunda filmə baxış olub.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının yaradıcı kollektivlərinin və Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının balaca fidanlarının hazırladığı kompozisiya, rəngarəng mahnı və rəqs nömrələri nümayiş etdirilib.

Tədbir çərçivəsində istedadlı qadınların rəsm və əl işlərindən, eləcə də qadınlar tərəfindən nəşr olunan kitablardan, ailə təsərrüfatı ilə məşğul olan qadınların istehsal etdiyi məhsullardan ibarət sərgiyə baxış olub. Tədbir iştirakçılarına bayram hədiyyələri təqdim olunub.

**Gülcamal TAHİROVA**

* * *



*AMEA Naxçıvan Bölməsində 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib.*

Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri açaraq Azərbaycan qadınının cəmiyyətdəki yeri və rolundan bəhs edib, qadınların ölkənin ictimai-siyasi, eləcə də mədəni həyatında fəal təmsil olunduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, tarixin müxtəlif dövrlərində mərd, cəsarətli, zərif Azərbaycan qadını salnamələrdə, ədəbiyyat nümunələrində təsvir olunmuş, mənəvi dəyərlərimizin bir hissəsinə çevrilmişdir. Akademik ulu öndər Heydər Əliyevin Azərbaycan qadını haqqında söylədiyi fikirlərdən sitatlar gətirərək ölkəmizdə, eləcə də muxtar respublikada qadınların fəaliyyətinə verilən qiymət, göstərilən dəstək və qayğıdan söz açıb.

Çıxışının sonunda bölmə rəhbəri AMEA Naxçıvan Bölməsində çalışan xanımları təbrik edib, xoş arzularını çatdırıb.

Tədbirdə məruzə edən Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının aparıcı elmi işçisi, kimya üzrə fəlsəfə doktoru, dosent Aliyə Rzayeva Azərbaycan qadınını əxlaqi dəyərlərin simvolu, cəmiyyətin inkişafının aparıcı qüvvəsi, vətənpərvər, fədakar, ismətli ana kimi xarakterizə edib.

Təbii Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev bayramla əlaqədar xanımlara səmimi təbriklərini çatdırıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdən öncə universitetin Pedaqoji və İncəsənət fakültələrinin müəllim və tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.



Tədbiri giriş sözü ilə açan ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev qeyd edib ki, ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da qadınların cəmiyyətin ictimai-siyasi həyatında rolu getdikcə artır. Aparılan uğurlu siyasətin bəhrəsidir ki, Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən 401 qadın əməkdaşın 4-ü elmlər doktoru, 3-ü professor, 40-ı dosent, 60-ı fəlsəfə doktoru, 201-i isə müəllimdir. Onlardan 10 nəfəri Azərbaycan Respublikasının, 8 nəfəri isə Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüb. Diqqətə çatdırılıb ki, ali təhsil ocağında nüfuzlu nəşrlərdə elmi məqalələri dərc olunan müəllimlər sırasında da qadın müəllimlərimiz xüsusilə seçilirlər. Vurğulanıb ki, ali təhsil ocağında 2852 nəfər qız tələbə var ki, bu da ümumi göstəricinin 51 faizini təşkil edir. Elbrus İsayev əlamətdar gün münasibətilə universitetin qadın əməkdaşlarını təbrik edib və işlərində uğurlar arzulayıb.

Sonra Təsviri incəsənət kafedrasının müəllimi Səyyarə Sadıxovaya sənətşünaslıq üzrə fəlsəfə doktoru, Pedaqogika və psixologiya kafedrasının baş müəllimi Solmaz Cabbarovaya pedaqogika üzrə fəlsəfə doktoru diplomları və qiymətli hədiyyələr təqdim olunub.

Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva qadınlar adından çıxış edərək yaradılan şəraitə və xanımlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Tədbir bədii hissə ilə davam edib, qadın əməkdaşlara hədiyyələr təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

* * *

*Martın 5-də "Naxçıvan" Universitetində 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.*



Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Hüseyn Bağırsoylu cəmiyyətimizdə qadınların əvəzsiz rolundan danışaraq qeyd edib ki, zəriflik və gözəllik rəmzi olan qadın, ana adı tarixboyu Vətənimizdə həmişə uca tutulub, Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərib. Bu gün qadın əməkdaşlarımız universitetimizin ictimai-siyasi, mədəni və iqtisadi həyatında fəal iştirak edərək uğurla həyata keçirilən təhsil islahatlarında genişmiqyaslı quruculuq və abadlıq işlərinə öz töhfələrini verirlər. Prorektor universitetin bütün xanım əməkdaşlarını, o cümlədən Azərbaycan xanımlarını təbrik edərək onlara cansağlığı, ailə xoşbəxtliyi, iş və şəxsi həyatlarında uğurlar arzu edib.

Tədbir İqtisadiyyat və İdarəetmə fakültələri tələbələrinin birgə hazırladığı konsert proqramı ilə davam edib.

Yekunda isə universitetin ictimai-mədəni və elmi həyatında fərqlənən qadın müəllimlər plaket və hədiyyələrlə təltif olunublar.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

* * *

*8 Mart – Beynəlxalq Qadınlar Günü muxtar respublikamızın rayonlarında da qeyd olunub.*





Şərur Rayon Olimpiya İdman Kompleksində keçirilən tədbirdə vurğulanıb ki, muxtar respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da qadınlar dövlət qayğısı ilə tam əhatə olunub. Rayon üzrə 10062 nəfər Yeni Azərbaycan Partiyasının üzvü var ki, onların 3171-i, yəni 31,5 faizi qadınlardır. Hazırda rayonda dövlət qulluğunda 136, təhsil sahəsində 2035, səhiyyə sistemində 625, mədəniyyət sahəsində 328, kənd təsərrüfatı sahəsində 919, digər sahələrdə isə 1216 qadın çalışır, 3 qadın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Ötənilki qəbul imtahanlarında 236 nəfər ali məktəblərə qəbul olub ki, onların da 143-ü, yəni 60 faizi qızlardır. Respublikamızın hər yerində olduğu kimi, son illərdə Şərur rayonunda da 50-dən çox qadının əməyi yüksək qiymətləndirilib, onlar fəxri adlar və yüksək dövlət mükafatları ilə təltif olunublar. Tədbirdə rayonun ictimai-siyasi həyatında fərqlənən qadınlara hədiyyələr təqdim edilib. Sonda qadınların əl işlərindən ibarət sərgiyə baxış olub.

Babək rayonunda keçirilən tədbirdə vurğulanıb ki, bu gün Babək rayonunda müxtəlif sahələrdə çalışan qadınlar da bilik və bacarıqları, işgüzarlıqları, ictimai-siyasi həyatdakı fəallıqları ilə seçilirlər. Qadınların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Belə ki, rayonda təhsil sahəsində çalışan 5 qadın "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 6 qadın "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb, 5 qadın "Tərəqqi" medalı ilə təltif olunub. Mədəniyyət sahəsində çalışan 1 qadın Prezident mükafatına layiq görülüb, səhiyyə sahəsində fəaliyyət göstərən 1 qadın "Tərəqqi" medalı ilə təltif olunub, 2 qadın "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adına, 1 qadın "Azərbaycan Respublikasının Əməkdar tibb bacısı" fəxri adına layiq görülüb. Hazırda rayonun 76812 nəfər sakini var ki, onların 50 faizini – yəni 38399 nəfərini qadınlar təşkil edir. Bu qadınlardan 3087 nəfəri Yeni Azərbaycan Partiyasının üzvüdür. Zərif cinsin nümayəndələrindən 1493-ü təhsil, 375-i səhiyyə, 240-ı isə mədəniyyət sahəsində uğurla fəaliyyət göstərir.

*Ardı 3-cü səhifədə*

Müxtəlif musiqi nömrələrinin səsləndirildiyi tədbirdə rayonun ictimai-siyasi həyatında fərqlənən, eləcə də şəhid ailələrindən olan qadınlara gül və hədiyyələr təqdim olunub.

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Ordubad rayonunda da bayram tədbiri keçirilib. Tədbirdə bildirilib ki, Ordubad rayonunda da qadınlarımız bütün sahələrdə aktiv rol oynayırlar. Rayon əhalisinin 25186 nəfəri, yəni 50 faizi qadındır. Rayonda qadınların sağlamlığının qorunması və onların məşğulluğunun təmin olunması, müvafiq peşəyə yiyələnmələri üçün muxtar respublika rəhbəri tərəfindən ardıcıl tədbirlər görülür. Bu gün qadınların müxtəlif sahələrdə rəhbər vəzifələrdə işləmələri diqqət mərkəzində saxlanılır. Təhsil, mədəniyyət, səhiyyə, dövlət qulluğu, ailə təsərrüfatı sahələrində çalışan qadınlarımız üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Rayonda işləyən qadınların fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Son illər rayon qadınlarından 35-i Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına və mükafatlarına layiq görülmüş, medal və nişanlarla təltif edilmişdir. Təkcə yola saldığımız 2021-ci ildə rayondan 5 nəfər dövlətimiz tərəfindən müxtəlif mükafatlara layiq görülmüşdür ki, onların da ikisi qadındır. Tədbir konsert proqramı ilə davam etdirilib.





Culfa Rayon Mədəniyyət Sarayında keçirilən tədbirdə qeyd olunub ki, bu gün Culfa rayonunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrində çalışan qadınlar da öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-mədəni həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Son illər rayonun fəal qadınlarının aldıqları dövlət mükafatları, fəxri adlar bunu deməyə əsas verir. Qadınlarımız cəmiyyətimizə daha çox nüfuz etməklə yeni-yeni ailə təsərrüfatlarının yaradılmasında da səy və bacarıqlarını əsirgəmirlər. Məhz qadınlarımızın zəhməti hesabına çoxnövlü ailə təsərrüfatlarının yaradılmasına nail olunmuşdur. Rayonun ictimai-mədəni həyatında fərqlənən qadınlara, eləcə də şəhid analarına gül və hədiyyələr verilib, tədbirin bədii hissəsində musiqi nömrələri səsləndirilib, rəqs nümunələri nümayiş olunub.

Kəngərli rayonunda keçirilən tədbirdə vurğulanıb ki, muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Kəngərli rayonunda da qadınlar dövlət qayğısı ilə əhatə olunmuşlar. Hazırda rayon üzrə təhsil, mədəniyyət və səhiyyə işçilərindən 739 nəfəri, dövlət qulluğunda işləyənlərin 22 nəfəri, bələdiyyə orqanlarında işləyənlərdən isə 18 nəfəri qadındır. Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında təmsil olunanların 1397 nəfərini qadınlar təşkil edir. Qadın əməyinə ölkə başçısı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilən yüksək qiymətin nəticəsidir ki, Kəngərli rayonundan 1 nəfər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Eyni zamanda 2021-ci ildə 1 nəfər "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Tədbirdə iştirak edən qadınlara hədiyyələr təqdim olunub.

Rayon Mədəniyyət Şöbəsinin "Kəngər" instrumental ansamblı üzvlərinin və uşaq musiqi məktəbləri kollektivlərinin rəngarəng çıxışları iştirakçılara xoş ovqat bəxş edib.

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Şahbuz Rayon Mədəniyyət Sarayında tədbir təşkil edilib. Tədbir iştirakçıları əvvəlcə şahbuzlu qadınların əl işlərindən ibarət sərgi ilə tanış olublar. Çıxışlarda bildirilib ki, rayonda fəaliyyət göstərən təşkilatlarda, xüsusən də dövlət qulluğunda əhatə etdiyi sahələrdə qadınlar yüksək səviyyədə təmsil olunur, onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Belə ki, rayon qadınlarından 8-i Əməkdar müəllim, 1-i Əməkdar hakim,1-i Əməkdar jurnalist, 1-i Əməkdar tibb işçisi, 1-i Əməkdar artist adına layiq görülüb, 2 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olub. Həmçinin respublikamızın inkişafındakı xidmətlərinə görə 6 nəfər "Tərəqqi" medalı və 2 nəfər "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib. Əminlik ifadə olunub ki, qadınlarımız onlara göstərilən yüksək dövlət qayğısına cavab olaraq çalışdıqları bütün sahələrdə, xüsusilə də gənc nəslin təlim-tərbiyəsində, Vətənə məhəbbət ruhunda böyüməsində və onların sağlamlıqlarının qorunmasında əsl Azərbaycan qadını mövqeyindən çıxış edərək öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirəcəklər. Tədbirdə rayonun ictimai-siyasi həyatında fərqlənən qadınlara hədiyyələr təqdim olunub. Sonda təşkil olunan konsert proqramında ifa olunan musiqi nömrələri iştirakçılarda xoş təəssüratlar yaradıb.

Sədərək Rayon Mədəniyyət Sarayında keçirilən tədbirdə qeyd olunub ki, ölkəmizdə olduğu kimi, Sədərək rayonunda yaşayan qadınlarımıza da dövlət qayğısından pay düşmüşdür. Bu gün rayonun idarə və təşkilatlarında müxtəlif sahələrdə 100-dən artıq xanım çalışır ki, onlardan 6-sı rəhbər vəzifə tutub. Qadınlarımızın əməyi daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Onlar "Əməkdar kənd təsərrüfatı işçisi", "Əməkdar müəllim", "Əməkdar tibb işçisi" adlarına layiq görülüblər. Ali təhsil ocaqlarında təhsil alan, idman yarışlarında qalibiyyət qazanan qızlarımızın sayı gündən-günə artır. Bütün bunların təməlində isə məhz dövlət qayğısı dayanır. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəallıq göstərən qadınlar mükafatlandırılıb. Sonra Mədəniyyət Sarayının musiqiçilərinin ifaları dinlənilib.

**Xəbərlər şöbəsi**

# Azərbaycan qadını hünər, cəsarət, ucalıq nümunəsidir

***Azərbaycan qadını! Azərbaycan anası! Həmişə uca, həmişə hörmətlə çəkilib bu adlar. Tarixin elə bir dövrü olmayıb ki, onun qəhrəmanlığından, böyütdüyü övladların igidliyindən bəhs edilməsin. Yoldaşı ilə birgə döyüşə atılan qadın da olub, oğlu ilə birlikdə dövlət işlərində diplomatlıq edən də, özündən qat-qat böyük olan işğalçı dövlətin qaniçən padşahını məğlub edən də. Vaxtilə güclə tapdığı bir ovuc undan bişirdiyi çörəyi səngərdə döyüşən əsgərə göndərib, özü ac yatsa da, qürurunu əsla itirməyəni də. Madar balasını, canının yarısını Vətənə qurban verib, oğlunun, yoldaşının dəfnində başını dik tutub "düşmən sevinməsin, biz bir ölüb, min dirilirik", – deyən də. Hansı sahədə işləməsindən asılı olmayaraq, o, həmişə öz savadı, qəhrəmanlığı, vətənpərvərliyi ilə nümunə olub. Qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə onlardan bir neçəsi ilə həmsöhbət oluruq:***



***Şərabanu Mədətli.*** O, bir igid anasıdır. Vətən müharibəsi şəhidi, Şərur rayon Çomaxtur kəndində dünyaya gəlib Şuşa uğrunda gedən döyüşlərdə Tuğ kəndində əbədiyyət şərbəti içən Zülal Mədətlinin anası. Ana deyir ki, od düşdüyü yeri yandırar, amma bu, elə bir oddur ki, bütöv Azərbaycan analarının ürəyinə düşdü. Hamımızın qüruru da, kədəri də oldu oğullarımız. Onlar başımızı uca etdi öz əməlləri ilə. Xalqımızın qisasını mənfur düşməndən aldılar. İllərdir, tapdaq altında inləyən torpağa öz qanları ilə can verdilər. Oğlum çox sevirdi hərb sənətini. O, istəyinə çatdı. Hər iki istəyinə – həm hərbçi oldu, həm də qəhrəman. Əminəm ki, oğlumun ruhu şaddır, çünki onun uğrunda döyüşdüyü torpaqlar azad oldu. O torpaqlar ki biz şəhid anaları həmin torpaqlar azaddır deyə ovunuruq. Oğlum şəhidlik zirvəsinə yüksələn gündən ailəmiz hər zaman dövlət qayğısını hiss edib. Hər bir çətinliyimiz vaxtında həll edilib. Ondan yadigar qalan iki övladı hərtərəfli qayğı ilə əhatə edilib. Maddi və mənəvi olaraq dəstək görürük. Şərur şəhərində üçotaqlı, hər bir şəraitə sahib olan mənzillə təmin edilmişik. Oğlumun igidliyi dövlət başçısı tərəfindən yüksək qiymətləndirilib. Tanrı bayrağımızı uca etsin, dövlətimizi qorusun.

***Şəhid Məmmədhəsən Sadıqlının həyat yoldaşı Şərabanu****nun gözlərinə çökən kədəri bircə Uğurun şıltaqlığı silir:

– Ömür yolu qısa olsa da, şərəflidir, ibrətamizdir Məmmədhəsənin. Hərbçi yoldaşı olmaq nə qədər qürurludursa, şəhid yoldaşı adını daşımaq da bir o qədər şərəflidir. Bundan sonrakı həyatımı Məmmədhəsənin qəhrəmanlıqlarını yaşatmağa, Uğurumu atasının adına layiq böyütməyə həsr edəcəyəm. Şəhidlər öz canlarını övladlarına gözəl bir gələcək vermək üçün fəda etdilər. Torpaqlarımız azad oldu, artıq məğlub bir millətin yox, qalib bir xalqın övladı kimi böyüyəcək balalarımız. Onlar atalardan oğullara ərməğan olan sıx birliyə, dövlətə, Vətənə sədaqəti bir daha sübut edib, Vətən müharibəsində qalib gəldilər. Məmmədhəsən kimi yüzlərlə igid öz canını Vətənə fəda etdi. Onlar tarixin axınını dəyişdirdilər. Yeni bir qəhrəmanlıq səhifəsi açdılar. Şəhid yoldaşı kimi həmişə haraya üz tutmuşamsa, hörmət və ehtiramla qarşılaşmışam. Təhsil aldığım Naxçıvan Dövlət Universitetində rəhbərlik və müəllimlərim mənə hörmətlə yanaşır. Dövlət qayğısı ilə dərdim az da olsa, azalır. Bilirəm ki, Məmmədhəsənin ruhu şaddır, çünki onun Vətənə əmanət etdiyi ailəsi dövlət tərəfindən qorunur.

***Vüsalə Əliyeva*** Sədərək rayonunda fəallığı ilə seçilən qadınlarımızdandır. O, 2003-cü ildən Sədərək kənd 1 nömrəli tam orta məktəbdə müəllim işləyir. 2011-ci il 21 noyabrda Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri seçilib. 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb. 2015-ci il 1 noyabrda beşinci çağırış, 2020-ci il 9 fevralda altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilib.

Onun dedikləri: – Muxtar respublikada qadınların cəmiyyətin ictimai-siyasi həyatında rolu getdikcə artır. Bu, bir tərəfdən Naxçıvanda qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələr, digər tərəfdən isə muxtar respublikada həyata keçirilən dövlət qadın siyasəti ilə bağlıdır. Sədərək rayonunda müəllim kimi fəaliyyətə başlayan vaxt qadınların təhsildən və ictimai işlərdən geri qalması bir çoxları kimi məni də narahat edirdi. Xüsusilə də, erkən nikahlar və onun törətdiyi fəsadlar ilə bağlı illər keçdikcə müvafiq tapşırıq və tövsiyələr, eləcə də yaradılan hərtərəfli şərait nəticəsində bu problemlər aradan qaldırıldı. Aktiv fəaliyyət göstərən zərif cinsin nümayəndələri dövlət tərəfindən müxtəlif təltif və yüksək adlarla mükafatlandırıldı. Bu da yetişməkdə olan gənc nəslin diqqətindən kənarda qalmadı. Eyni zamanda bizlər də müxtəlif ictimai-siyasi işlərdə örnək addımlar atmağa və gənclərə nümunə olmağa çalışırdıq.Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının üzvlərinin hər biri müxtəlif təşkilatlarda fəallığı ilə seçilən qadınlardır. Qadınlar Şurasının üzvləri kimi vaxtlı-vaxtında məktəblərdə olur, xüsusilə də yetkinlik yaşına çatmamış məktəblilərlə tərbiyəvi söhbətlər aparırıq. Söhbətlərdə sənət, peşə sahibi olmağın faydası, təhsilin onların həyatında əhəmiyyəti vurğulanır, erkən yaşda ailə qurmağın mənfi cəhətləri aşılanır, hansı böyük fəsadlarla üzləşə biləcəkləri deyilir. Cəmiyyət, Vətən üçün yararlı vətəndaş olmağa səslənilir.

Bir neçə ildir ki, ictimai işlərdə qadın fəallığının şahidi oluruq. Müxtəlif bilik yarışmalarında qızlar öz istedadları ilə oğlanları üstələyir. Bunu respublikamızın ali və orta ixtisas təhsili məktəblərinə qəbul olunan şagirdlərin say tərkibində açıqca görmək olar. Yaxın günlərdə yaradılmasının 30 illiyini qeyd edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşı, ən çox iş stajına malik olan, gömrük xidməti mayoru ***Nüşabə Sadıxova*** 1989-cu ildən Culfa dövlət sərhəd-buraxılış məntəqəsində xidmət edir. Bu illər ərzində Naxçıvan gömrüyünün keçdiyi inkişaf yolunun canlı şahididir. Söhbət zamanı deyir: – Culfa gömrüyünün 190 ildən artıq yaşı vardır. Tarixən bu yerlərdə həmişə ticarət, gediş-gəliş olub. Gömrük orqanlarında xidmətə başladığım illər doğma Naxçıvanımız üçün çox ağır, məşəqqətli illər idi. Gömrükxanada normal iş şəraitinin olmaması əməkdaşlara öz işlərini layiqincə yerinə yetirməyə imkan vermirdi. Yeni işə qəbul olunanlar gömrükçü peşəsinin sirlərini yalnız özlərindən əvvəl işləmiş təcrübəli əməkdaşlardan öyrənirdilər. İndiki kimi müxtəlif dərs və tədris vasitələri, kitab və digər materiallar yox idi. Əməkdaşların peşəkarlığının artırılması üçün kurslar, təlimlər, seminarlar keçirilmirdi. Bu gün gömrük işinin bütün sahələrində əldə olunan nailiyyətlər əvvəlki illərlə müqayisəyə gəlməyəcək səviyyədədir. Gömrük infrastrukturunun yenilənməsi, maddi-texniki bazanın möhkəmlənməsi yeni gömrük erasının başlanğıcıdır. Gömrük işinin bütün sahələri üzrə hər il yüksək göstəricilər əldə olunur. Ölkəmizin milli və iqtisadi təhlükəsizliyi naminə çox geniş funksiyalara malik olan gömrük xidməti qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi üçün müasir şəraitə, yüksək maddi-texniki bazaya və geniş imkanlara malikdir. Ömrümün birqərinəlik dövrünü gömrük xidmətində keçirən bir gömrük əməkdaşı kimi yaradılan şəraitdən, göstərilən diqqət və qayğıdan güc alaraq ölkəmizin iqtisadi və milli maraqlarının, təhlükəsizliyinin qorunması və muxtar respublikamızın hərtərəfli inkişafı üçün bundan sonra da səylə çalışacağam.

*İctimai fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı, fədakarlığı və qəhrəmanlığı ilə seçilən Azərbaycan qadını bu gün də öz missiyasını davam etdirir. Yaşadığı yerdən, işlədiyi vəzifədən asılı olmayaraq, bu gün hər bir azərbaycanlı qadın fədakar, vətənpərvər övladlar yetişdirib, Vətən torpağına sipər edir. Odu sinəsinə basıb məğrurluqla söndürür. Yollara dikilən gözlərinə çökən əbədi həsrəti qürurla əvəz edib, şəhid olan həyat yoldaşının cənazəsini çiyinində əbədiyyətə yola salmağa apararaq Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan övladının dəfnində "sənə halal olsun, igidim, torpağımızı azad etdin, qaçmadın düşmənin qarşısından, sinəndən vuruldun, kürəyindən vurulsaydın haqqımı sənə halal etməzdim", – deyib dünyaya nümunə göstərir Azərbaycan qadını!*

**Ramiyyə ƏKBƏROVA**

Xalq təqvimi

# Ənənəvi təsəvvürdə Yel çərşənbəsi

## *Yelli-güllü çərşənbənin yeni nəfəsli, yeni ruhlu qədəmləri uğurlu olsun!*

*Boz ay dönəmində, yəni Novruz bayramına yaxın 4 çərşənbə zamanı 4 ünsür oyanır. Bu, qədim türk mifik görüşləri ilə bağlıdır. Hər bir ilaxır çərşənbəni simvollaşdıran, dünyanın yaranmasında aparıcı mövqe daşıyan bu ünsürlər Novruzla bağlı fəlsəfi düşüncənin əsaslarındandır. Su, Torpaq, Yel, Od ünsürlərinin köməyi ilə qışda yatan, ölən təbiət dirilib canlanır. Hər çərşənbədə bir ünsürün ayılması qədim türk mifologiyasından qaynaqlanır.*



Üçüncü ilaxır çərşənbə Yel çərşənbəsidir. Yel çərşənbəsində yelin ayılması, yelin əsməyə başlaması bəzi təsərrüfat işlərinin də sahmana salınmasına yardım edir. Əvvəllərdən "Xırman" mərasiminin icrasında da yelin, küləyin funksiyası aparıcı mövqe daşıyırdı. Xalq arasında "Küləkli hava gərəkli olar" atalar sözü də bu məqamı təsdiqləyir. Və ya "Xırmanın yelsiz qalmasın" kimi alqış nümunəsi də yelin təsərrüfat əhəmiyyətini bir daha sübuta yetirir.

Yel çərşənbəsinə bəzən xalq arasında "toz çərşənbə" də deyirlər. Təbiət qüvvələrinə etiqadla yanaşan etnos təbiətə hörmətini, ondan imdad, kömək istəyini müxtəlif ayinlərlə ifadə etmişdir. Təbiətdən kömək uman, aman diləyən xalq əzizləmə xarakterli adlarla da bu məqsədini açıq-aydın büruzə verir. Yelin təsərrüfata gərəkli olduğunu düşünən xalq onu "əzizləyərək" "külək oyadan çərşənbə", "küləkli çərşənbə", "yelli-güllü çərşənbə", "yelli çərşənbə" də adlandırmışdır.

Yel dünyanın yaranmasında 3-cü fundamental stixiya, yəni ünsür sayılır. Yel nəfəsalma mexanizmi kimi təzahür edərək həyat prinsipi ilə birbaşa bağlanır. Qədim mifologiyalardakı təsəvvürlərə görə, Yel Allahı Şu səmanı və torpağı doğurur. Bu obraz həyat simvolu kimi səma qapılarını açan və örtən obraz kimi təsəvvür edilir.

Azərbaycan türklərində "Yel baba" obrazı kimi tanınan varlıq qədim türk dünya duyumuna görə, dünyada nə külək varsa, hamısının ixtiyarını öz əlinə alır. Xalq arasında belə bir mifoloji inam dolaşmaqdadır ki, "Yel yeldir, onu da əsdirən var". Azərbaycan xalqının folklor örnəklərinə əsasən söyləmək olar ki, Yel çərşənbəsi zamanı müxtəlif ayin və mərasimlərin icrası mütləqdir. Xalq düşüncəsində yelin müqəddəs anlam daşıması xalqımızın şifahi təfəkküründə uzun müddət başlıca mövqe daşımışdır. Bu baxımdan Azərbaycanın bəzi regionlarından toplanmış mərasim örnəkləri haqqında məlumatlar yelin bir zamanlar xalqımızın düşüncəsində kult məqamında olduğunu sübut edir. Naxçıvan ərazisindən toplanmış folklor örnəklərinə əsasən söyləmək mümkündür ki, xalqın folklor yaddaşında Yel kultu – Yel əyəsi ilə bağlı maraqlı mifik mətnlər, inanc-sınama nümunələri mövcuddur. Belə ki, xalqın folklor yaddaşında Yel çərşənbəsi zamanı yel əyəsinin ayıldığına inanc dolaşmaqdadır. Biz əyə kultuna, sözünə Naxçıvan ərazisində daha çox rast gəlirik. Xalq belə deyir ki: "Yel çərşənbəsində yel ayılır, küləyh əsir, havanın ağrıığı sınır". Bu inanclar qədim türklərdə yelin kult səviyyəsində olduğunu nümayiş etdirir. Yelin "baba" hesab edilməsi xalqımızın şifahi təfəkküründə uzun zamanlar başlıca mövqedə olmuşdur.

Əvvəldə qeyd etdiyimiz kimi, Yel çərşənbəsində, ümumiyyətlə, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində bir-birindən maraqlı ayin və mərasimlər icra edilməkdədir ki, bunların çoxunda Yel tanrısına sitayiş əks olunur. Evlərdəki paltar-palazın təmiz havaya çıxarılıb tozunu təmizləmək, "Xırman" mərasiminin aktual olduğu vaxtlarda taxılın biçilib xırmana yığılması ilə icra olunan "Yel baba" mərasimi Yel tanrıçılığına inamı təsdiqləyir. Yel çərşənbəsi zamanı qəbirüstü ziyarətlər də təşkil olunur. Belə ki, dünyadan köçən insanların xatırlanması münasibətilə ehsanlar bişirilib paylanır, qəbirləri ziyarət edilir. Həmin ildə yas düşən evin sakinləri yasdan çıxarılır. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda buna "paxır bayramı" deyilir. Belə ki, bu çərşənbəyədək qırxı çıxmayan mərhumun evinə yaxınlar, qohumlar toplaşır. Onun ailə üzvləri ilə birgə evdə bayrama hazırlıq görürlər. Bayrama münasib şirniyyatlar bişirilir, evin sakinlərinə təzə geyimlər geyinmək, qara libasları Novruz əhvali-ruhiyyəli libaslarla əvəzləmək tövsiyə olunur. Beləliklə, həmin ailə də ərazidəki digər ailələr kimi sosial birlikdən, el-obanın bayram əhvali-ruhiyyəsindən kənarda qalmır.

Xalqımızın şifahi yaddaşında yaşayan, yel kultuna tapınmanı ifadə edən atalar sözləri diqqətçəkəndir:

*Yel qayadan nə aparar?!;*
*Yelnən gələn selnən gedər;*
*Alçaxda yatma – sel aparar,*
*Ucada yatma – yel aparar;*
*Kələklə gələn, küləklə gedər.*

Kiçik janr nümunələrindən olan tapmacalar da yelin əfsanəvi obrazını yaratmaq baxımından xarakterikdir:

*Hər yan ələk-vələkdir,*
*İsti tamam kələkdir.*
*Dəyirmana can verər,*
*Xırmana da gərəkdir.*

Yel baba obrazı Naxçıvan Muxtar Respublikası ərazilərindən toplanmış inanc nümunəsində öz maraqlı əksini tapmaqdadır. Xalq belə deyər ki: "Yel çərşənbəsi gecəsi söyüd ağacının altına keçib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün yarpaqları ağaca toxunsa, diləyin gerçəkləşər".

Yel çərşənbəsində ayılan yelin, küləyin təsiri ilə təbiətə güc-qüvvət, yeni nəfəs gəlir. Qışda "ölən" təbiəti Boz ayda oyadan 4 ünsür – Su, Torpaq, Yel, Od yeni təbiətin carçısı kimi xalq yaddaşında güc-qüvvət rəmzi olaraq yaşamaqdadır.

*Uca Tanrı ömrünüzə nur qatsın, sağlam həyat, sağlam ruh diləyiniz gerçək olsun! Yelli-güllü çərşənbənin yeni nəfəsli, yeni ruhlu qədəmləri uğurlu olsun!*

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***

# *"Qadınlar və güllər"* mövzusunda rəsm sərgisi keçirilib



*Martın 5-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə "Qadınlar və güllər" adlı rəsm sərgisi keçirilib.*

Açıq havada təşkil edilmiş tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, tariximizin hər səhifəsi Azərbaycan qadınının müdrikliyi, fədakarlıq və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik milli-mənəvi dəyərlərimizin yaranmasında və təşəkkül tapmasında, bu günlərədək yaşadılmasında qadınlarımız misilsiz xidmətlər göstəriblər. Bu ülvi varlıq hər bir rəssamın yaradıcılığında ilham mənbəyi olub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında qadınların dövlət aparatlarında, seçkili və seçkisiz orqanlarda irəliyə çəkilməsi, onların potensialından istifadə edilməsi, cəmiyyətimizin aparıcı hissəsi olan qadınların imkanlarından bəhrələnməsi dövlət qadın siyasətinin əsasıdır. Bu gün müasirləşən və inkişaf edən muxtar respublikamızda bütün sahələrdə yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır.

Ülviyyə Həmzəyeva 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadınları təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərov və başqaları çıxış edərək qadınların cəmiyyətdəki rolundan, onlara göstərilən diqqət və qayğıdan danışıb, bayram təbriklərini çatdırıblar.

Sonra qonaqlar sərgi ilə tanış olublar. Qadın gözəlliyinə və zərifliyinə həsr olunan "Qadın və gül", "Güllər", "Sarı gəlin", "Zəhmətkeş qadın", "Xalçaçı qız", "Rəqs edən qadın" kimi rəsm əsərləri orijinallığı ilə diqqəti cəlb edib.

Qeyd edək ki, sərgidə 20 rəssamın 36 əl işi nümayiş olunub.

**Aytac CƏFƏRLİ**

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində Azərbaycan Cüdo Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Güləş Federasiyasının təşkilatçılığı ilə cüdoda tətbiq edilən yeni qaydalarla bağlı hakimlər və məşqçilər üçün seminar keçirilib.*

# Yeni qaydalarla bağlı seminar

Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədlinin iştirakı ilə hakimlər üzrə menecer, beynəlxalq dərəcəli hakim Mətin Rəhimli tərəfindən keçirilən seminarda hakimlərlə yanaşı, müxtəlif klubların, cəmiyyətlərin və idman komandalarının məşqçiləri iştirak ediblər.



Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı iştirakçılara uğurlar arzu edib. Elnur Məmmədli yeni qaydalarda tətbiq olunan dəyişikliklər barədə məlumat verib, hakimlər və məşqçilər tərəfindən yeni qaydaların tətbiq edilməsinin zəruriliyini vurğulayıb. Elnur Məmmədli, eyni zamanda federasiyanın gələcək planları haqqında danışıb, cüdonu ölkədə daha da irəliyə aparacaq işlərdən bəhs edib. Gənclər və idman naziri Ramil Hacı Naxçıvandan olan idmançıların da yarışlara cəlb edilməsini və iki qurum arasında qarşılıqlı əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Seminardan sonra olimpiya çempionu, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti *Elnur Məmmədli*nin fikirlərini öyrəndik:



"İlk dəfədir ki, Naxçıvan Muxtar Respublikasına gəlirəm, dəvətə görə minnətdarlığımı bildirirəm. "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır", – deyiblər, doğrudan da, Naxçıvan deyildiyi kimi, hətta ondan da yaxşı, mükəmməl inkişaf etmiş bir diyardır. Şəhər çox təmiz, səliqəli, insanları qonaqpərvərdir. Hər zaman burada güclü, beynəlxalq turnirlər keçirilib ki, onların sırasında cüdo da var. Keçirilən cüdo üzrə muxtar respublika çempionatında biz də Cüdo Federasiyası olaraq iştirak edirik. Hazırda Beynəlxalq Cüdo Federasiyasında hakimliklə bağlı bəzi dəyişikliklər olub və biz də Naxçıvana hakimlərlə birlikdə gəldik, seminar keçirdik və qaydaları hakimlərə, idmançılara izah etdik. 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar keçiriləcək tədbirdə iştirak etmək üçün dəvət gəldi və böyük məmnuniyyətlə turnirdə iştirak edirik. Naxçıvanda güclü idmançılar yetişib və bu gün bunun bir daha şahidi olduq. Bir idmançı kimi onların görüşlərini izlədim və bu zalda gələcəyin dünya, Avropa və olimpiya çempionları olduğunu gördüm. Hər birinə uğurlar arzulayıram və bu idmançıların gələcəkdə Azərbaycanın bayrağını dünya arenalarında dalğalandıracaqlarına inanıram".

# Muxtar respublika birinciliyinin qalibləri mükafatlandırılıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Azərbaycan Cüdo Federasiyası və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkilatçılığı ilə cüdo üzrə yeniyetmələr (2008-2010-cu il təvəllüdlü) arasında 5 mart – Bədən tərbiyəsi və İdman Gününə həsr olunmuş muxtar respublika birinciliyi keçirilib.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən birincilikdə 100-dən çox idmançı tatami üzərinə çıxıb.

Beynəlxalq Cüdo Federasiyasının yeni qaydaları çərçivəsində təşkil olunan birincilikdə idmançılar 10 çəki dərəcəsində qüvvələrini sınayıblar. Yarışın yekun nəticəsinə əsasən qızlar arasında qalib adına Səkinə Bağırlı layiq görülüb.

Oğlanların mübarizəsində Rəhim Qaybalıyev (34 kiloqram), Eldar Əliyev (38 kiloqram), Məhəmməd Mədətli (42 kiloqram), Qurban Məmmədli (46 kiloqram), Arif Cabbarov (50 kiloqram), Ülvü Babayev (55 kiloqram), Aqil Hüseynov (60 kiloqram), Gürkan Quliyev (66 kiloqram), Oğuz Qasımov (73 kiloqram) və Rəhman Qənbərli (+73 kiloqram) öz çəki dərəcələrində fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

Sonda qaliblər diplom və medalla mükafatlandırılıb. Mükafatları gənclər və idman naziri Ramil Hacı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, olimpiya çempionu Elnur Məmmədli və Azərbaycan Cüdo Federasiyasının baş katibi Rəşad Rəsullu təqdim ediblər.

**Ceyhun MƏMMƏDOV**


## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

## *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***I. Kafedra müdiri vəzifələri:***

Ali riyaziyyat və informatika kafedrasının müdiri

İncəsənət kafedrasının müdiri

***II. Kafedralar üzrə digər vəzifələr:***

*Pedaqogika və psixologiya kafedrası:*
– Dosent – 1 yer ( 1 ştat)
– Dosent – 1 yer (0,5 ştat)

*Xarici dillər və tədrisi metodikası kafedrası:*
– Baş müəllim – 1 yer (0,5 ştat)
– Baş müəllim – 2 yer ( hər biri 1 ştat)

*Ali riyaziyyat və informatika kafedrası:*
– Dosent – 1 yer (0,5 ştat)

*Azərbaycan dili və ədəbiyyat kafedrası:*
– Dosent – 1 yer (0,5 ştat)

*İncəsənət kafedrası:*
– Dosent – 1 yer (1 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 2,***
***Naxçıvan Müəllimlər İnstitutu,***
***Rektorluq***



**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 213**